Yeni məktəblərin açılış mərasimlərində təhsil naziri Mikayıl Cabbarov, Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov, təhsil ictimaiyyətinin nümayəndələri və yerli sakinlər iştirak ediblər.

Öncə təhsil naziri Mikayıl Cabbarov Qusarın mərkəzi meydanında ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyub, ruhuna hörmət və ehtiramını bildirib.

Sonra Qusar rayonu Hil kənd ümumtəhsil məktəbinin yeni binasının açılış mərasimi keçirilib. Məktəbin rəmzi açılışını bildirən qırmızı lent kəsilib və qonaqlar təhsil müəssisəsi ilə tanış olublar.

Yeni istifadəyə verilən 180 şagird yerlik Hil kənd ümumtəhsil məktəbinin 11 sinif otağı, 2 laboratoriya, 2 əmək təlimi otağı, gənclərin çağırışaqədər hazırlığı otağı, kompüter otağı, müəllimlər otağı, tibb məntəqəsi, bufet, kitabxana, akt zalı və idman zalı var. Məktəbin binasında videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri quraşdırılıb, internet və telefon xətləri çəkilib, qazanxana istifadəyə verilib.

Məktəbin akt zalında müəllim, valideyn və kənd sakinləri ilə görüş keçirilib. Yeni inşa olunmuş məktəblə bağlı pedaqoji kollektivi və yerli sakinləri təbrik edən təhsil naziri Mikayıl Cabbarov görüş iştirakçılarına ölkəmizdə aparılan təhsil islahatları haqqında məlumat verib. Nazir bildirib ki, son 11 il ərzində Azərbaycanda 3000-ə yaxın ümumtəhsil müəssisəsi tikilib və ya əsaslı təmir olunub. Bu isə ölkə rəhbərinin təhsilə olan xüsusi qayğısını əks etdirir.

Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov çıxışında yeni məktəblərin inşasının təhsilin keyfiyyətinin yüksəldilməsinə əhəmiyyətli təsir etdiyini vurğulayıb. Şair Alxasov ölkəmizdə bu sahədə aparılan işlərin rayon sakinləri tərəfindən təqdir edildiyini bildirib.

Sonra çıxış edən məktəbin müəllimləri yeni inşa olunmuş tam orta məktəbin kənd ictimaiyyəti üçün böyük hədiyyə olduğunu və buna görə ölkə rəhbərliyinə təşəkkür etdiklərini bildiriblər.

Növbəti açılış mərasimi Qusar rayonunun Bədirqala kəndində ümumtəhsil məktəbinin yeni binasında keçirilib. Rəmzi açılışı bildirən qırmızı lent kəsildikdən sonra qonaqlar məktəb binası ilə tanış olublar.

Məlumat verilib ki, 1947-ci ildə tikilmiş əvvəlki birmərtəbəli məktəb binası uzun müddət istismar olunduğundan yararsız vəziyyətə düşmüşdü. Ötən il Təhsil Nazirliyi tərəfindən köhnə məktəb binasının yerində yenisinin inşasına başlanılıb və tikinti nəzərdə tutulan müddətə başa çatdırılıb.

Mərasim iştirakçıları məktəbdə şagirdlər üçün yaradılan şəraitlə tanış olub, siniflərə, idman zalına, laboratoriyaya baxıblar. Yeni məktəbdə 11 sinif otağı, 1 ümumi laboratoriya, kompüter otağı, müəllimlər otağı, texniki otaq, bufet, akt zalı, idman zalı mövcuddur. Binada videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri quraşdırılıb, internet və telefon xətləri çəkilib, qazanxana tikilib.

Sonra akt zalında müəllimlər, valideynlər və yerli sakinlərlə görüş keçirilib. Təhsil naziri Mikayıl Cabbarov bu bayram günlərində ikiqat sevinc hissi yaşayan kənd sakinlərini təbrik edib. Məktəbin müəllim kollektivi və kənd sakinləri yeni məktəb binasının tikintisini kəndin ictmai həyatında əlamətdar tarixi hadisə adlandıraraq dövlətimizin təhsilə qayğısını yüksək qiymətləndiriblər.